**Şəhidin səsi**

Anam, məni ölmüş bilib ağlama,
Ölməmişəm, dirilərdən diriyəm!
Son cərgədə qazılsa da məzarım,
Ön cərgədə döyüşənin biriyəm!

Kim Vətəni bütöv görsə baxtı var,
Haqq yanında mərtəbəsi, taxtı var.
Ölməyində vədəsi var, vaxtı var.
Ana, məni ölmüş bilib ağlama!

Ölməmişəm, qeyrətim var, ay ana,
Qeyrətsizə heyrətim var, ay ana.
Hələ onnam söhbətim var, ay ana,
Hələ mənnən görüşü var dünyanın.

Nə sudan çəkinib geri durası,
Nə oddan yayınıb qorxasıyam mən.
Bütün döyüşlərin dayaq nöqtəsi,
Bütün orduların arxasıyam mən.

Üfüqlər arasında bata bilmərəm,
Boş yerə ölümə verməərəm canı.
Rahatca uyuyub yata bilmərəm
Qalib görməyincə Azərbaycanı!

Yaqub Z. Şəhidin səsi : şeir // Xalq qəzeti. - 2005. - 20 yanvar. - S. 8.